**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**05.11.2021-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 1**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1. "2020/2021-ci tədris ilində dekanlığın gördüyü işin hesabatı və yeni dərs ilində fakültə kollektivinin vəzifələri" barədə Fakültə dekanı prof. A.Ə.Ağayevin çıxışı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Kafedranın tədris-metodik sənədlərinin (kafedranın iş planı; müəllimlərin fərdi iş planı; dərs cədvəlləri; açıq dərslərin cədvəli və s.) dekanlığa vaxtında təqdim edilməsinə, tələb olunan qaydalara uyğun qeydiyyatının aparılmasına nəzarət gücləndirilsin;

2. Kafedra tərəfindən İM-ə təqdim olunan aralıq qiymətləndirmə testlərinin professor-dosent heyəti tərəfindən yenidən baxılmasına (testlərin tərtibatı zamanı istinad edilən ədəbiyyatların tədrisdə istifadə olunan materiallara uyğunluğu, testlərdə iki və ya daha çox düzgün cavabın olmaması və s.) nəzarət edilsin;

3. Müəllimlərin dərs jurnallarında aparılan qeydiyyatların dekanlıq tərəfindən təqdim olunan jurnaldakı qeydiyyat ilə eyni olmasına, eləcə də elektron jurnalların hər bir müəllim tərəfindən fərdi doldurulması və vaxtında müvafiq ünvana ötürülməsinə nəzarət etsinlər;

4. Kafedralarda tədris olunan fənlərin proqramlarına uyğun tədris-metodik vəsaitlərin, dərsliklərin olmasına (həmçinin ingilis dilində) və onlara yenidən baxılmasına, eləcə də istifadə olunan tədris materiallarının günün tələblərinə uyğun şəkildə tərtibatına diqqət yetirsinlər;

5. Kafedralarda ingilis dilində tədrisin keyfiyyətinə və bu dildə tədris edən müəllimlərin hazırlığına xüsusi diqqət yetirilsin;

6. Dərslərin keyfiyyətini yüksəltmək və səmərəliliyini artırmaq məqsədilə kafedralarda tədris prosesinin gedişinə və nizam-intizam qaydalarına ciddi nəzarət edilsin;

6. Universitetin Elmi Şurasında və FEŞ-da müzakirə olunan məsələlər kafedra iclaslarında da müzakirə olunaraq həmin iclasın protokolu dekanlığa təqdim olunsun.

III. Dekanlığa tapşırılsın ki: Universitetin Elmi Şurasında verilən qərarların icrasına nəzarət etsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: dos. Y.H.Hacıyeva